

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 52 (23.214)

*15 mart 2019-cu il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Martın 14-də Azərbaycanın paytaxtında Prezident İlham Əliyevin himayəsi və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə "Dünyanın yeni xarici siyasəti" mövzusunda VII Qlobal Bakı Forumu işə başlayıb.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Forumun açılış mərasimində iştirak edib.

Azərbaycan Prezidenti İlham Əliyev Forumda nitq söyləyib.

* * *

Martın 14-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev VII Qlobal Bakı Forumunda iştirak edən Əfqanıstan İslam Respublikasının Prezidenti Məhəmməd Əşrəf Qani, Albaniya Prezidenti İlir Meta, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin üzvü Şefik Caferoviç, Moldova Prezidenti İqor Dodon, Monteneqro Prezidenti Milo Cukanoviç, Bolqarıstan Respublikasının Baş naziri Boyko Borisov və Rumıniyanın Baş nazirinin müavini xanım Ana Birçal ilə görüşüb.




# Naxçıvanda yaz-tarla işlərinə hazırlıqla əlaqədar müşavirə keçirilib

Martın 14-də "Naxçıvan Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətində muxtar respublikada yaz-tarla işlərinə hazırlıqla əlaqədar səyyar müşavirə keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası baş nazirinin birinci müavini Elşad Əliyev çıxış edərək demişdir ki, aqrar sahədə həyata keçirilən islahatlar və göstərilən dövlət dəstəyi muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin edilməsinə etibarlı zəmin yaratmışdır. İqtisadiyyatın real sektorunun əsas istiqamətlərini müəyyən edən dövlət proqramlarının həyata keçirilməsi, lizinq xidmətlərinin genişləndirilməsi, taxıl və soyuducu anbarların həcminin artırılması, istixana komplekslərinin, quşçuluq, balıqçılıq təsərrüfatlarının, meyvə-tərəvəz emalı müəssisələrinin yaradılması nəticəsində muxtar respublikanın kənd təsərrüfatında inkişaf təmin edilmişdir. Artıq muxtar respublikada kənd təsərrüfatı məhsullarının intensiv amillər hesabına artırılması üçün yeni innovativ texnologiyalar tətbiq edilir, dünyanın aparıcı ölkələrində istehsal olunan kənd təsərrüfatı texnikaları istifadə olunur.



Qeyd olunmuşdur ki, 2018-ci ilin payızında cari ilin məhsulu üçün muxtar respublikada 31 min 667 hektar sahədə taxıl əkini aparılmışdır. Artıq muxtar respublikada yaz-tarla işlərinə başlanılmışdır. Bu ilin yazında 27 min hektardan artıq sahədə əkin aparılacaq. Eyni zamanda 70 hektar sahədə yeni meyvə bağları, 6 hektar sahədə üzüm bağı, 106 hektar sahədə tinglə bərpa, 170 hektar sahədə isə toxumla bərpa olmaqla, ümumilikdə, 352 hektar sahədə yaşıllaşdırma tədbirlərinin aparılması nəzərdə tutulub. 2019-cu ilin muxtar respublikada "Ailə təsərrüfatları ili" elan olunması və Tədbirlər Planının təsdiq edilməsi bu sahənin inkişafına səbəb olmuşdur. Hazırda muxtar respublikada 525 böyük ailə təsərrüfatı mövcuddur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov müşavirədə çıxış edərək demişdir: Muxtar respublikada həyata keçirilən tədbirlər kənd təsərrüfatının inkişafını təmin etmiş, əkinəyararlı torpaqlar əkin dövriyyəsinə qatılmış, aqrar sahədə məhsul istehsalı artırılmışdır. Bu işlərin həyata keçirilməsində əsas məqsəd ondan ibarətdir ki, muxtar respublikada torpaqlardan səmərəli istifadə olunsun, insanların məşğulluğu və ərzaq təhlükəsizliyi təmin edilsin, məhsul ixracı yaransın. Artıq muxtar respublikada ərzaq təhlükəsizliyi təmin edilmiş, daxili tələbat ödənilməklə yanaşı, həm də kənd təsərrüfatı məhsullarının ixracına başlanılmışdır. Bütün bunlar isə yaradılan şəraitin, eyni zamanda kənd təsərrüfatı sahəsində çalışanların səyləri hesabına olmuşdur.

Ali Məclisin Sədri muxtar respublikada kənd təsərrüfatının inkişafında əməyi olanlara təşəkkürünü bildirərək demişdir: Bu gün ölkə Prezidenti kənd təsərrüfatının inkişafına və ərzaq təhlükəsizliyinin təmin olunmasına hərtərəfli diqqət və qayğı göstərir. Ölkəmizin hər yerində əkinəyararlı torpaqlardan səmərəli istifadə olunur. Göstərilən dövlət qayğısı nəticəsində əhalinin bu sahəyə marağı artıb. Torpaq mülkiyyətçilərinə subsidiyaların verilməsi, torpaqların vergidən azad olunması, kənd təsərrüfatı məhsullarının sərbəst satışı üçün şəraitin yaradılması, güzəştli şərtlərlə kreditlərin və texnikaların verilməsi aqrar sahənin inkişafına səbəb olmuşdur. Bu sahədə həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikanın aqrolizinq xidmətində 300-dən artıq müasir kənd təsərrüfatı texnikası vardır.

Ali Məclisin Sədri demişdir: Ümummilli liderimiz Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində muxtar respublikaya rəhbərlik etdiyi zaman torpaqların özəlləşdirilməsinə başlanılmış və bu proses 1996-cı ildə başa çatdırılmışdır. Bu gün Naxçıvan Muxtar Respublikasının torpaq mülkiyyətçiləri arasında fermer təsərrüfatı yaradanlar və ailə təsərrüfatları quranlar da vardır. Qarşıda duran əsas vəzifə ailə təsərrüfatlarını və fermerləri müasir texnikalarla təmin etməkdən və fəaliyyətlərini genişləndirməkdən ibarətdir. Muxtar respublikada bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Dövlət tərəfindən güzəştli şərtlərlə kreditlərin verilməsi, kənd təsərrüfatı məhsullarının satış yarmarkalarının təşkili və sərbəst ixracı bu sahənin inkişafına səbəb olmuşdur. Meliorativ tədbirlərin görülməsi, torpaqların su təminatının yaxşılaşdırılması, yeraltı suvarma şəbəkələrinin qurulması, yeni subartezian quyularının qazılması, kəhrizlərin bərpası, suvarma kanallarının mütəmadi təmizlənməsi və anbarlara suyun yığılması əkilən torpaqlardan səmərəli istifadə olunmasına imkan verir. Eyni zamanda kənd təsərrüfatı sahəsində çalışanlara dövlət dəstəyi ilə güzəştli şərtlərlə texnikaların verilməsi və əl əməyinin yüngülləşdirilməsi həm bu sahəyə marağı, həm də kənd təsərrüfatı məhsulları istehsalında rentabelliyi artırmışdır.

Ali Məclisin Sədri demişdir: Bu il Naxçıvan Muxtar Respublikasında "Ailə təsərrüfatları ili" elan olunub. Bu, təsadüfən qəbul olunmuş qərar deyil. Artıq muxtar respublikada ixtisaslaşmış ailə təsərrüfatları fəaliyyət göstərir, müxtəlif çeşiddə məhsullar istehsal olunur. Ailə təsərrüfatlarında istehsal olunmuş məhsulların qablaşdırılması üçün tədbirlər görülür, yarmarka və festivallar keçirilir. Lakin buna baxmayaraq, rayon icra hakimiyyətləri və aid qurumlar ailə təsərrüfatlarının inkişafına bundan sonra da dəstək verməlidirlər. Ailə təsərrüfatları maarifləndirilməli, kreditlər verilməli, ailə təsərrüfatlarındakı mal-qaranın sayı artırılmalı, əkin atlaslarından səmərəli istifadə olunmalı, torpaqların xüsusiyyətlərinə uyğun əkinlər aparılmalı və meyvə bağları salınmalıdır. Hər bir ailə təsərrüfatı ilə fərdi iş aparılmalı, onlara istiqamət verilməli, istehsal etdikləri məhsullar daxili bazara çıxarılmalı və ixraca yönəldilməlidir. Rayonlar üzrə ailə təsərrüfatları qeydiyyata alınmalı, gələcəkdə ailə təsərrüfatlarının genişləndirilərək fermer təsərrüfatlarına çevrilməsinə şərait yaradılmalıdır. Gətirilən yeni texnikalar və aqrar sahədə həyata keçirilən digər tədbirlər də ailə təsərrüfatlarının inkişafına xidmət edir. Aid təşkilatlar ailə təsərrüfatlarının inkişafında təşəbbüskarlıq göstərməli, onların ehtiyacları ödənilməli və fəaliyyətləri genişləndirilməlidir. Dövlət bu işlərin görülməsi üçün lazımi şərait yaradıb. Çünki ailə təsərrüfatı həm ailə üzvlərinin məşğulluğunu təmin edir, həm də bazarın





*Ardı 2-ci səhifədə*






yerli məhsullarla təminatında mühüm rol oynayır. Ona görə də ailə təsərrüfatlarını inkişaf etdirməklə ərzaq təhlükəsizliyini və məşğulluğu təmin etmək qarşıda duran əsas vəzifədir.



Ali Məclisin Sədri aid dövlət təşkilatları tərəfindən qarşıya qoyulmuş vəzifələrin layiqincə yerinə yetiriləcəyinə və ailə təsərrüfatlarının formalaşmasında ciddi dönüşə nail olunacağına əminliyini bildirmiş, bu işdə hər kəsə uğurlar arzulamışdır.

Sonra Ali Məclisin Sədri “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən alınmış yeni kənd təsərrüfatı texnikalarına baxmışdır.

Bildirilmişdir ki, fəaliyyəti dövründə “Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyəti tərəfindən 2667 kənd təsərrüfatı texnikası alınmışdır. Həmin texnikaların 2086-sı lizinq yolu ilə torpaq mülkiyyətçilərinə, ailə təsərrüfatlarına və fermerlərə verilmişdir. Lizinqə verilmiş texnikalara görə 7 milyon 370 min manat güzəşt tətbiq edilmiş, 314 ədəd texnika və texnoloji avadanlığın dəyəri tam ödənildiyindən 207 sahibkara həmin texnikaların onların şəxsi mülkiyyətinə keçirilməsinə dair sənədlər təqdim olunmuşdur. 2019-cu ildə tələbata uyğun olaraq 292 texnika və texnoloji avadanlıq alınaraq muxtar respublikaya gətirilmişdir. Alınan texnikalardan 10-u kombayn, 66-sı traktor, 54-ü kotan, 12-si çiləyici, 15-i rotorlu otbiçən, 13-ü dırmıq, 13-ü gübrəsəpən, 20-si kanalaçan, 15-i qırxım aparatı, 5-i taxılsəpən, 1-i toxumtəmizləyən, 4-ü çizel, 4-ü dərmansəpən, 25-i qüvvəli yem maşını, 10-u otdoğrayan maşın, 2-si əl ilə yer şumlayandır. Həmçinin alınmış avadanlıqlar içərisində 17 dəst çiləmə suvarma sistemi də vardır.

“Naxçıvan Aqrolizinq” Açıq Səhmdar Cəmiyyətində və rayon bazalarında fəaliyyət



göstərən baytarlıq aptekləri, ehtiyat hissə və gübrə anbarları, eləcə də təmir sexləri muxtar respublikada yaz-tarla işlərinin, becərmə və yığım proseslərinin uğurla həyata keçirilməsinə imkan verəcəkdir.

Ali Məclisin Sədri aqrar sahədə ailə təsərrüfatlarının formalaşdırılması, ailə təsərrüfatlarının tələbatına və sifarişlərinə uyğun texnikaların alınıb gətirilməsi, kənd təsərrüfatının inkişafında texnoloji yeniliklərin tətbiqi və səmərəli metodlardan istifadə ilə bağlı maarifləndirmə işlərinin aparılması, rayon icra hakimiyyətləri və İqtisadiyyat Nazirliyi tərəfindən ailə təsərrüfatlarının müraciətlərinin araşdırılması və kreditlərin verilməsinin davam etdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

*15 mart – Ümumdünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günüdür*

# İstehlakçı hüquqları qorunur

15 mart – Dünya İstehlakçı Hüquqlarının Müdafiəsi Günü bütün dünyada olduğu kimi, ölkəmizdə də qeyd edilir. İstehlakçıların hüquqlarının müdafiəsi sahəsində dövlət siyasətinin əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuşdur. 1995-ci il sentyabrın 19-da “İstehlakçıların hüquqlarının müdafiəsi haqqında” Azərbaycan Respublikasının Qanunu qəbul olunmuş, bu sahədə hüquqi bazanın tam şəkildə formalaşdırılması istiqamətində məqsədyönlü və ardıcıl işlər həyata keçirilmişdir. Ötən müddətdə istehlakçıların hüquqlarının müdafiəsi ilə bağlı bir sıra normativ-hüquqi aktlar da qəbul edilmiş, qanunvericilik bazası möhkəmləndirilmişdir. Hazırda ölkəmizdə bütün sahələrdə keyfiyyət göstəricilərinin beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində ciddi tədbirlər görülür. Bu gün Azərbaycanda daxili bazarın formalaşdırılması və istehlakçı hüquqlarının qorunması istiqamətində qarşıya qoyulan əsas vəzifə əhalinin istehlak mallarına olan tələbatını yerli istehsal hesabına yüksəkkeyfiyyətli məhsullarla təmin etməkdən ibarətdir.

Bu gün muxtar respublikada iqtisadi inkişafın səmərəliliyinin artırılmasında keyfiyyət əsas meyar kimi qəbul olunur. Buna görə də daxili bazarın və istehlakçıların hüquq və mənafelərinin qorunması istiqamətində təsərrüfat subyektlərində istehsal edilən və idxal olunan məhsulların keyfiyyətinə dövlət nəzarəti diqqət mərkəzində saxlanılır. Həyata keçirilmiş nəzarət tədbirlərinin təhlili istehlak bazarında əsaslı keyfiyyət dəyişikliklərinin müşahidə edildiyini göstərir. Belə ki, sahibkarların öz öhdəliklərinə daha məsuliyyətlə və istehlakçıların hüquqlarına hörmətlə yanaşması əldə olunan başlıca uğur kimi dəyərləndirilə bilər. Hazırda qarşıda duran əsas vəzifə istehlakçıların hüquqlarının müdafiəsi, əmtəə bazarlarının keyfiyyətsiz və sağlamlıq üçün təhlükəli məhsullardan qorunması məqsədilə işlərin daha da gücləndirilməsi və bu sahədə zəruri tədbirlərin görülməsindən ibarətdir.

Daxili bazarın və istehlakçıların hüquqlarının qorunmasında inzibati tədbirlərlə yanaşı, istehlakçıların və sahibkarların maarifləndirilməsi çox böyük əhəmiyyət kəsb edir. Məhz bu səbəbdən müxtəlif tədbirlərin keçirilməsi, kütləvi informasiya vasitələrində istehlakçı hüquqları ilə bağlı xüsusi verilişlərin hazırlanması, ticarət və ictimai iaşə obyektlərində çalışan xidmət işçilərinin təlimatlandırılması və digər bu kimi tədbirlər həyata keçirilir.

Yerli istehsalın genişləndirilməsi və istehsalçıların mənafelərinin qorunması məqsədilə “Naxçıvan Muxtar Respublikasında istehsal olunan və tələbatı 100 faiz ödəyən ərzaq və qeyri-ərzaq məhsulları haqqında məlumat” hazırlanaraq aidiyyəti üzrə göndərilmiş, topdan və pərakəndə satış obyektlərində yerli istehsal məhsullarının satışına üstünlük verilməsi ilə bağlı sahibkarlarla maarifləndirici tədbirlər görülmüşdür. Artıq sahibkarlar tərəfindən, xüsusilə yeyinti məhsullarının lazımi keyfiyyətdə istehsalına, onların saxlanma şəraitinə riayət olunmasına, daşınmasına və satışına, istehlakçılara göstərilən xidmət səviyyəsinin xeyli dərəcədə yaxşılaşdırılmasına nail olunmuşdur.

Məhsulun istehlakçıya çatdırılmasında bütün tələblərə riayət olunur ki, bu da muxtar respublika əhalisinin ekoloji cəhətdən təmiz, keyfiyyətli və etibarlı ərzaqla təminatına imkan verir. Bunun üçün istehlak bazarında mütəmadi olaraq məhsulların keyfiyyət və qiymətinə nəzarət tədbirləri, malların keyfiyyət və təhlükəsizlik göstəriciləri üzrə laborator müayinələrin aparılması, nəticələrə uyğun olaraq operativ tədbirlərin görülməsi həyata keçirilir. 2018-ci ildə istehlakçıların hüquqlarının qorunması məqsədilə 959 halda istehsal, ticarət, ictimai iaşə, məişət və digər növ xidmət obyektində nəzarət aparılmış, istehlak müddəti bitmiş məhsullar ticarət dövriyyəsindən çıxarılmış, sahibkarlıq subyektləri barəsində qanunvericiliyə uyğun tədbirlər görülmüşdür.

Ərzaq mallarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Belə ki, ötən il ərzaq mallarının keyfiyyət və təhlükəsizlik göstəricilərinin qiymətləndirilməsi ilə bağlı 996 səyyar və 2062 halda mal nümunəsi laboratoriya analizindən keçirilmişdir. Müayinə aparılmış mallar, əsasən, taxıl emalı məhsulları, unlu-qənnadı məmulatları, süd və süd məhsulları, konservlər, ət və ət məhsulları, meyvə-tərəvəz, mineral sular və sərinləşdirici içkilər, tamlı məhsullar, yağlar və digər məhsullar olmuşdur. Müayinə nəticəsində 9 halda malların keyfiyyət və təhlükəsizlik göstəricilərinin normativ-texniki sənədlərin tələblərinə uyğun olmadığı müəyyən edilmiş və bununla bağlı müvafiq tədbirlər görülmüşdür.

İstehlakçıların hüquqlarının qorunması istiqamətində həyata keçirilən tədbirlərdən biri də süni qiymət artımının qarşısının alınmasıdır. Belə ki, əhali tərəfindən daha çox istehlak olunan malların, həmçinin ərzaq malları, tikinti materialları və tərəvəz məhsullarının orta bazar qiymətlərinin səviyyəsi, dinamikası və dəyişmə meyilləri barədə məlumatların toplanılması və təhlili məqsədilə monitorinqlər davam etdirilmiş, ötən il 3437 adda ərzaq və qeyri-ərzaq məhsullarının topdan və pərakəndə satış qiymətləri nəzarətdə saxlanılmışdır. Daxili bazarda qiymət intizamına nəzarətin gücləndirilməsi məqsədilə aidiyyəti mərkəzi icra hakimiyyəti orqanlarının əməkdaşları ilə birlikdə həftədə bir dəfə olmaqla, daxili bazarda əsas istehlak mallarının pərakəndə satış qiymətlərinin monitorinqi həyata keçirilmiş, müəyyən olunmuş qiymətlərin pərakəndə satış qiymətləri ilə müqayisəli təhlilləri aparılmışdır.

Muxtar respublikada ailə təsərrüfatlarının inkişafı diqqətdə saxlanılır. Bu sahədə fəaliyyətin genişləndirilməsi, festivalların keçirilməsi, istehsal olunmuş məhsulların qablaşdırılması, 2019-cu ilin “Ailə təsərrüfatları ili” elan olunması, bununla bağlı Tədbirlər Planının təsdiq olunması mühüm əhəmiyyət daşıyır. Yaradılan şərait və həyata keçirilən tədbirlər ailə təsərrüfatlarının inkişafı ilə yanaşı, həm də istehlakçıların yerli, keyfiyyətli və standartlara uyğun qablaşdırılmış məhsullarla təminatına imkan verir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən kənd təsərrüfatı istehsalçılarının fəaliyyətinin stimullaşdırılması, əhalinin tələbatının daha dolğun ödənilməsi, süni qiymət artımının qarşısının alınması məqsədilə Mərkəzi bazarda kənd təsərrüfatı məhsullarının və emal sənayesi məhsullarının satışı yarmarkası təşkil olunur. Bu da istehlakçıların keyfiyyətli məhsulla təminatında mühüm rol oynayır.

İstehlakçıların hüquqlarının qorunması yalnız dövlətin işi deyil. Bu, daha çox ümumxalq işidir. Hər birimiz istehlakçı kimi öz hüquqlarımızı yaxşı bilməli və bu işə öz töhfəmizi verməliyik.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***

## Xaqani Əliyev: Naxçıvan teatrında yaradılmış şərait insana yaradıcılıq şövqü və xoş hisslər bəxş edir

*Xəbər verdiyimiz kimi, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında yazıçı-dramaturq Xaqani Əliyevin Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyinə həsr etdiyi “Ehsan xan Kəngərli” tarixi dramı tamaşaya qoyulub. Tamaşanın nümayişində əsərin müəllifi Xaqani Əliyev də iştirak edib. Biz də bu fürsətdən istifadə edib Xaqani müəllimlə söhbət etmək imkanı qazandıq. Yazıçı-dramaturq şəhərimizə gəlişinin məqsədindən, Naxçıvana ilk səfərinin təəssüratlarından, eləcə də burada elmə, təhsilə, mədəniyyətə göstərilən diqqət və qayğıdan belə bəhs etdi:*



– Görüşlərimizin birində, ürəyi hər zaman Naxçıvanla, Naxçıvan teatrı ilə döyünən, Xalq artisti, rejissor Kamran Quliyev səhnələşdirmək üçün tarixi dramların azlığından gileyləndi. İrəvan xanlığının tarixindən bəhs edən “İrəvan – üzü günəşə baxan şəhər” və Şəki xanı Hacı Çələbi xana həsr etdiyim “Qızılqaya xəyanəti” adlı tarixi dramlarımla tanış olduqdan sonra Kamran müəllim Ehsan xan Kəngərli haqqında dram əsəri yazmağı məsləhət bildi. Naxçıvan xanlığının tarixini daha dərindən öyrənməyə başladım. AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyevin mütəxəssis kimi verdiyi məsləhətlər maraqlı bir dram əsərinin ərsəyə gəlməsində böyük rol oynadı. Naxçıvan xanlığı haqqında olan materialları oxuyarkən Naxçıvan şəhəri və Ehsan xan haqqında çoxlarının bilmədiyi maraqlı faktlarla qarşılaşdım ki, həmin hadisələrdən biri dramın süjet xəttinin əsasını təşkil etdi. Naxçıvana gəlişimin məqsədi də məhz həmin tamaşanın premyerasında iştirak etmək idi. Tamaşanı izlədik, bir sözlə, möhtəşəm keçdi, inanıram ki, teatrsevərlər tərəfindən yüksək dəyərləndiriləcək. Ümumilikdə isə Azərbaycanın dövlətçilik tarixində özünəməxsus yeri olan Naxçıvanın muxtariyyət tarixindən bəhs edən əsərlərin səhnələşdirilməsi böyük əhəmiyyət daşıyır.

Naxçıvan Dövlət Universitetində tələbələrlə görüşümüz də çox maraqlı oldu, – deyən Xaqani Əliyev burada yetişdirilən kadrların gələcəkdə incəsənətin müxtəlif sahələrinə öz töhfələrini verəcəklərinə inandığını vurğuladı. Görüşdə iştirak edən Xalq artistləri Kamran Quliyev və Sərvər Əliyev, qiraət ustası Zülfiyyə Eldarqızı gələcəkdə bu sənətlə məşğul olacaq gənclərə öz tövsiyələrini verdilər. Suallardan da aydın görünür ki, burada təhsil alan tələbələr incəsənətə çox maraqlıdırlar və bu sahəni sevərək seçiblər. Digər tərəfdən Naxçıvan Dövlət Universitetinin Tələbə Teatr Studiyasının fəaliyyəti istedadlı tələbələrin inkişafında, onların yaradıcılıq bacarıqlarının püxtələşməsində böyük rol oynayır.

Xaqani Əliyev bildirdi ki, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında dünya standartlarına cavab verən bir səhnəni görəndən sonra muxtar respublikada mədəniyyətə göstərilən qayğının bir daha şahidi oldum. Burada yaradılmış şəraitə heyrətini və məftunluğunu gizlədə bilməyən yazıçı teatrla bağlı fikirlərini belə ifadə etdi: “Bu əzəmətli bina, möhtəşəm səhnə, bənzərsiz şərait insanda yalnız yaradıcılıq şövqü və xoş hisslər yaradır. Yəqin ki, buradakı təəssüratlarımı uzun müddət unuda bilməyəcəyəm. Mən bir çox ölkələrdə, bir çox teatrlarda olmuşam. Səmimiyyətimə inanın, heç bir yerdə belə gözəl, möhtəşəm teatr binası görməmişəm. Adama elə gəlir ki, sanki nağıllar aləmindədir, buradakı nizam-intizam, səliqə-sahman, peşəkar aktyor-rejissor heyəti tərifəsığmazdır”.

Tarixi əsərlər müəllifi şəhərimiz haqqında da təəssüratlarını bölüşdü:

– Bu şəhər mənim yaddaşımda muzeylər, tarixi abidələr şəhəri kimi qalacaq. Hər addımda bir muzey, bir abidə var. Naxçıvandakı dünyaca tanınmış müqəddəs Əshabi-Kəhf ziyarətgahına getmək çoxdankı arzum idi. Bu arzuma çatdım. Həqiqətən də, bu ziyarətgah insanı öz sehrinə salan, möcüzəli bir məkandır. Naxçıvandakı sakitlik, səliqə-sahman, nizam-intizam məni heyran etdi. Bu şəhər qəlbimi oxşadı, gözəl təbiəti, təmiz havası ilə yanaşı, müasirliyi, abadlığı, könül rahatlığı mənə əsl zövq verdi. Keçmişini, tarixini, bu gününü göz bəbəyi kimi qoruyan, tarixi qəhrəmanlarına, ağsaqqallarına, ziyalılarına, sadə adamlarına, sözə, sənətə ehtiramla yanaşan, əzəməti və gözəlliyi ilə ruha dinclik gətirən qeyrət qalası Naxçıvandakı bu gözəllikləri qurub-yaradanlara eşq olsun.

Qeyd edək ki, yazıçı-dramaturq Xaqani Əliyevin Naxçıvan Muxtar Respublikasının 95 illik yubileyinə həsr olunmuş “Ehsan xan Kəngərli” tarixi dramının quruluşçu rejissoru Xalq artisti Kamran Quliyev, quruluşçu rəssamı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Əbülfəz Axundov, musiqi tərtibatçısı Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi İmamqulu Əhmədovdur.



İlk dəfə Naxçıvan teatrında səhnəyə qoyulan “Ehsan xan Kəngərli” tamaşasında Naxçıvan xanlığının düşdüyü çətin vəziyyətdən çıxış yolu axtaran Ehsan xanın siyasi düşüncələri və xüsusən ermənilərin Naxçıvana yerləşdirilməsinin qarşısını almaq üçün rus diplomatı Aleksandr Sergeyeviç Qriboyedovla apardığı söhbətlər olduqca maraq doğurur.

Tamaşada Ehsan xanla yanaşı, Abbasqulu ağa Bakıxanov və digər tarixi obrazlar da tamaşaçıda böyük maraq doğurur. Bakıxanov erməni fitnələrinin qarşısını almaq üçün Ehsan xana çıxış yolu tapmaqda kömək edir. “Ehsan xan Kəngərli” tamaşasında dövrün ictimai-siyasi hadisələri faktlarla səhnəyə gətirilir ki, bu da tamaşaçını cəlb edir.

Tamaşada Azərbaycan Respublikasının Xalq artistləri Rza Xudiyev (Ehsan xan), Rövşən Hüseynov (Kalbalı xan), Həsən Ağasoy (Kərim xan), Azərbaycan Respublikasının Əməkdar artistləri Bəhruz Haxverdiyev (Şıxəli bəy), Səyyad Məmmədov (Qriboyedov) və digərləri maraqlı obraz və personajlar yaradıblar.

✍ **Gülcamal TAHİROVA**

## “Milli-mənəvi dəyərlərimiz: Novruz bayramı” mövzusunda yaradıcılıq müsabiqələri keçirilib

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin şagirdləri arasında “Milli-mənəvi dəyərlərimiz: Novruz bayramı” mövzusunda rəsm müsabiqəsi keçirilib.*



Naxçıvan Şəhər Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində keçirilən rəsm müsabiqəsində ümumtəhsil məktəblərində təhsil alan bütün yaş qruplarından olan 40 şagird iştirak edib.

Naxçıvan Muxtar Respublikası təhsil nazirinin müavini Heyran Əhmədova tədbirdə çıxış edərək bildirib ki, muxtar respublikamızda mədəniyyətin, o cümlədən təsviri sənətin, xüsusən də rəssamlığın inkişafına böyük diqqət və qayğı göstərilir.

Qeyd olunub ki, Novruz bayramına həsr olunmuş rəsm müsabiqəsi muxtar respublika məktəblilərinin yaradıcılıq qabiliyyətlərinin daha da inkişaf etdirilməsi, gənc nəslin mənəvi, bədii və estetik dünyagörüşünün formalaşmasına, gənclərdə vətənpərvərlik duyğularının daha da gücləndirilməsinə xidmət edir.

Məktəblilər adət-ənənələrimizin, milli-mənəvi dəyərlərimizin əbədiyaşarlıq rəmzi olan, baharın gəlişini tərənnüm edən Novruz bayramı ilə bağlı müxtəlif mövzularda 2 saat müddətində rəsm çəkiblər.

Müsabiqə iştirakçılarının işləri münsiflər heyəti tərəfindən qiymətləndirilib. Nəticələrə uyğun olaraq rəsm müsabiqəsində bir I yer, iki II yer, üç III yer və altı həvəsləndirici yer olmaqla, 12 qalib müəyyən edilib.

Qeyd edək ki, “Milli-mənəvi dəyərlərimiz: Novruz bayramı” mövzusunda inşa yazı müsabiqəsi də keçirilib. Müsabiqədə ümumtəhsil məktəblərinin IX-XI siniflərində təhsil alan 100 şagird iştirak edib. Yazı müsabiqəsində bir I yer, iki II yer, üç III yer və altı həvəsləndirici yer olmaqla, 12 qalib müəyyən edilib.

Hər iki müsabiqənin qalibləri diplom və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

*AMEA Naxçıvan Bölməsində “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” ikicildliyinin təqdimatı olub.*

## “Naxçıvan Muxtar Respublikasının coğrafiyası” ikicildliyinin təqdimatı olub

Tədbiri bölmənin sədri, akademik İsmayıl Hacıyev açaraq fundamental nəşrin elmi dəyərindən danışıb. Alim bildirib ki, AMEA-nın Akademik Həsən Əliyev adına Coğrafiya İnstitutu ilə birgə hazırlanan, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin dəstəyi ilə çap edilən kitabın birinci cildində zəngin təbii şəraitə və təbii ehtiyatlara malik olan muxtar respublika ərazisinin fiziki coğrafiyasının müxtəlif sahələrini əhatə edən ən son elmi tədqiqatların nəticələri əks olunub. Fundamental əsərdə Naxçıvan ərazisinin geoloji quruluşu, relyefi, iqlimi, su ehtiyatları, torpaq və bitki örtüyü, heyvanlar aləmi və landşaftları araşdırılmaqla, fiziki-coğrafi rayonlaşdırma vahidləri ayrılıb və onlar geniş şərh edilib.









Diqqətə çatdırılıb ki, “Naxçıvan Muxtar Respublikasının coğrafiyası”nın ikinci cildində muxtar respublikanın iqtisadi, sosial və siyasi coğrafiyasının müxtəlif sahələrinə aid elmi tədqiqatların nəticələri hərtərəfli işıqlandırılıb. Kitabda bu diyarın siyasi-iqtisadi, coğrafi mövqeyi, təbii şəraiti və təbii ehtiyatları, toponimikası, əhalinin məskunlaşması və digər son statistik məlumatlar yer alıb. Həmçinin Naxçıvanda sənayenin, kənd təsərrüfatının və infrastrukturun əsas sahələri araşdırılıb, inzibati ərazi vahidləri iqtisadi-coğrafi istiqamətdə ətraflı təhlil olunub. Sosial sahədə baş verən əhəmiyyətli dəyişikliklər konkret faktlarla ikinci cilddə ictimaiyyətə təqdim edilib.

Sonra Naxçıvan Dövlət Universitetinin dosenti, coğrafiya üzrə fəlsəfə doktoru Nazim Bababəylinin “Naxçıvan Muxtar Respublikasının coğrafiyası Azərbaycan elmində yeni nailiyyətdir” mövzusunda məruzəsi dinlənilib. Bölmənin Təbii Ehtiyatlar İnstitutunun Coğrafiya şöbəsinin kiçik elmi işçiləri Qiyas Qurbanov və Lamiyə Əliyeva çıxış edərək yeni nəşrin elmi dəyərindən söz açıblar.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## “Reproduktiv sağlamlıq və ailə dəyərləri” mövzusunda tədbir

***Ordubad rayonunun Baş Dizə Kənd Mərkəzində “Reproduktiv sağlamlıq və ailə dəyərləri” mövzusunda tədbir keçirilib. Tədbiri Ordubad Rayon İcra Hakimiyyəti başçısının müavini Fərqanə Hüseynli açaraq belə tədbirlərin əhəmiyyətindən danışıb.***

“Ailələrdə qadınların ailə dəyərlərinin və sağlam həyat tərzinin aşılanmasında əsas rolu” mövzusunda Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova çıxış edərək ailənin xalqımızın milli mentalitetində mühüm yer tutmasından, qadınların gələcək nəslin fiziki-mənəvi tərbiyəsindəki rolundan danışıb.

Ramilə Seyidova qeyd edib ki, aparılan təhlillərə görə, Ordubad rayonu üzrə 17 min 895 uşaq vardır ki, onlardan da 157-nin sağlamlıq imkanları məhduddur. Bu da ümumi uşaqların 0,8 faizini təşkil edir. Muxtar respublika üzrə 1950 sağlamlıq imkanları məhdud uşaq vardır ki, bu uşaqların da 8,05 faizi Ordubad rayonunun payına düşür.

Bütün bunlar onu göstərir ki, sağlam ailənin formalaşması üçün tərəflər sağlam həyat tərzi yaşamalı, nikaha daxil olarkən həkim müayinəsindən keçməli və sonrakı dövrdə də qadınların reproduktiv sağlamlığı daim diqqət mərkəzində saxlanılmalıdır.

“Qadınlarda virus hepatitlərinin fəsadları, bətn daxilindəki uşağın xəstəlikləri və onlarla mübarizə yolları” mövzusunda isə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin həkim ginekoloqu, tibb elmləri üzrə fəlsəfə doktoru Gültəkin Əliyeva çıxış edərək Ordubad rayonu üzrə doğulan sağlamlıq imkanları məhdud uşaqların əsas xəstəliklərinin yaranması səbəbləri barədə slayd vasitəsilə məlumat verib.

Sonda tədbir iştirakçılarının sualları cavablandırılıb, onlara müvafiq mövzularda maarifləndirici broşürlər paylanılıb.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Yeni sərgilər açılıb



Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi fevral ayında Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndələrinin yaradıcılıqlarına, eləcə də əlamətdar tarixi günlərə həsr olunmuş sərgilərin təşkilini diqqətdə saxlamışdır.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda İran İslam Respublikasının tanınmış incəsənət xadimi Qulamrza Rahpeymaninin “Rəssamın yaradıcılıq yolu”, Xocalı soyqırımına həsr olunmuş “Unutsaq, unudularıq” adlı rəsm sərgiləri keçirilmişdir. Naxçıvan rəssamlıq məktəbinin görkəmli nümayəndəsi, realist rəssam Bəhruz Kəngərlinin anım günü ilə əlaqədar tədbir təşkil olunmuş, Babək Rayon Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində “Rəssamlıqda perspektiv” mövzusunda ustad dərsi keçilmişdir.

Birlik Türkiyənin Qazi Universitetində təşkil olunan “Qarabağda talan var, Xocalıda qətliam” adlı rəsm sərgisinin təşkilatçılarından biri olmuşdur.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda “Naxçıvan Muxtar Respublikası – 95” devizi altında gənclər və uşaqlar arasında sərgi-müsabiqə, birliyin ərazisində açıq səma altında 8 Mart – Beynəlxalq Qadınlar Gününə həsr olunmuş “Qadınlar və güllər” adlı rəsm sərgisi keçirilmişdir. Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi muxtar respublika daxilində olduğu kimi, ölkə xaricində də bir çox sərgilərə qatılmaqdadır. Birliyin üzvləri 13-17 mart tarixlərdə keçirilən 5. ArtAnkara Beynəlxalq Rəsm Sərgisində iştirak edirlər.

***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyi***

## Muxtar respublikanın mədəniyyət müəssisələri bayram günlərində də fəaliyyət göstərəcək



*Xalqımızın qədim bayramı olan Novruz hər il Naxçıvanda xüsusi təntənə ilə keçirilir. Ana yurdumuza baharın gəlişi bu il muxtariyyətinin 95 illiyini qeyd etdiyimiz doğma diyarımızda ikiqat bayram sevinci ilə qarşılanır.*

Novruz bayramı münasibətilə muxtar respublikanın mədəniyyət müəssisələri və kollektivləri tərəfindən rəngarəng, silsilə tədbirlər hazırlanıb. Bayram günlərində muxtar respublika sakinlərinin, eləcə də şəhərimizə gələn qonaqların və turistlərin mədəni istirahətlərinin yüksək səviyyədə təşkili üçün mədəniyyət müəssisələri səmərəli fəaliyyət göstərəcək.

Bayram günləri – 20, 21, 22, 23 və 24 mart tarixlərdə Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı, Estrada Orkestri və Kamera Orkestri, Naxçıvan Musiqi Kollecinin “Gənclik” instrumental ansamblı və Naxçıvan Şəhər Mədəniyyət Şöbəsinin “Şəlalə” instrumental ansamblı hər gün “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində konsert proqramı ilə çıxış edəcəklər.

Bayram günlərində muxtar respublikadakı bütün muzey və muzeytipli müəssisələr xidmət göstərəcəkdir. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı 22 mart, Məhəmməd Tağı Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı 20-23 mart, Naxçıvan Dövlət Uşaq Teatrı 20-25 mart tarixlərdə tamaşalar göstərəcəklər.

19-25 mart tarixlərdə muxtar respublikanın 19 kəndində rayon mədəniyyət şöbələrinin, kənd mədəniyyət evləri və klubların, uşaq musiqi məktəblərinin kollektivləri konsert proqramları ilə çıxış edəcəklər. Eyni zamanda martın 25-də Naxçıvan Dövlət Film Fondunda məktəblilər üçün film nümayişi təşkil ediləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Yaşıl donlu, incə belli səməni...

*Təbiətin ilk cücərtisi, yaşıl rəngi səməni... Yaşıl donlu, incə belli səməni. Elə-aləmə baharın gəldiyini müjdələdiyi üçün sevilərək, əzizlənərək belinə qırmızı lent də bağlanan, Novruz süfrələrini bəzəyən, el-el, ev-ev gəzən, nişanlı qızların “görüşünə gedən”, təzə gəlinlərin xonçasını rövnəqləndirən, ruzi-bərəkət rəmzi səməni. Bilirsənmi, sən hansı zamandan arzulanırsan?*



Payızın ortalarından başlayan ayaz-soyuq dağların, çəmənlərin, bağların yaşılına qənim kəsilib onları sarı xəzələ çevirəndən…Qışın qarı-şaxtası hər yanı aylar uzunu bəyazlara bürüyəndən… Zamanın bu kəsiklərində insanların gözləri yaşıla həsrət qalandan. Qışın böyük çilləsini yola salan, kiçik çilləsini başa vuran, Boz aya qədəm qoyan insanın ruhu sanki baharı səsləyir. Yaşıl rəngin min bir çaları ilə təbiətə dirilik, ömrə bəzək gətirən baharı. Gözlər yaşılı axtarır. Bax, bu zaman sən arzulanırsan, səməni. Çünki baharı sən gətirirsən. Novruzaqədərki çərşənbələrin bir-birinin ardınca suya hərarət, torpağa istilik, yelin, odun yurdumuza ılıq nəfəs bəxş etməsini bayram edərkən sən hökmən o bayram şənliklərinin, süfrələrinin bəzəyi olmalısan. Elə buna görə də Novruza 10-15 gün qalmış hər bir evdə xoş sözlərlə, xeyir-dualarla səni cücərdərlər ki, vaxta-vədəyə özünü yetirə biləsən. Sən o qədər sevimlisən ki, ana-nənələrimiz sənə zinət vurmaqdan usanmırlar.

Elə bu bayram ərəfəsində şəhərimizdə yaşayan və çeşidli səmənilər cücərdən Leyla xanımla bu mövzuda həmsöhbət olduq. O deyir:

– Səməni bolluğun, firavanlığın rəmzidir. Həm də səməni cücərtmək adəti heç də boş-boşuna yaranmayıb. Qədimdə torpaq oyanana yaxın bir az buğda götürüb cücərdərdilər ki, görsünlər, bu toxumluq üçün yaxşıdır, ya pis. Elə o vaxtdan ta bu günə kimi səməni cücərtmək bir adət halını almışdır. Gözümüzü dünyaya açıb özümüzü dərk edəndən ana-nənələrimizin bayramqabağı səməni cücərtməsinin şahidi olub öyrənmişik. Zaman keçdikcə səməni də fərqli şəkildə cücərdilməyə başlanıldı. Məsələn, mən milli ornamentimiz olan buta formasında səməni cücərtməyi çox sevirəm. Burada sanki iki rəmz birləşərək Novruz bayramının gözəlliyinə daha bir gözəllik qatır. Bayrağımızdakı səkkizguşəli ulduz formasında səməni daha gözəl alınır. Və yaxud böyük dairəvi səməni. Bunun üçün əvvəlcə karton kağızın üzərində qələmlə buta, ulduz, dairə şəkli cızıram. Sonra onu kəsirəm. Kartonu dəmir lövhənin üzərində bir qədər böyük ölçüdə kəsirəm ki, kənarları yuxarıya doğru qatlana bilsin. Sonra həmin formaların üzərinə nazik təbəqə torpaq tökür, əvvəlcədən isladılmış və artıq ağ cücərtilər əmələ gəlmiş buğdanı eyni qalınlıqda yayır, üstünə yenə də torpaq səpirəm. Torpaq əvəzinə tənzifdən də istifadə etmək olar, lakin torpaqda cücərdilən səməni daha uzun müddət yaşıl qalır və ətri də gözəl olur. Artıq bir neçə



ildir ki, səməni butulkada da göyərdirəm. Bunun üçün cücərdilmiş buğda nazik şəkildə bintin üzərinə yayılır. Butulkanın aşağı hissəsi bintin başlanğıcına qoyulur və yuxarıya doğru buğdalı bint sıx şəkildə ona sarılır. Bintin yuxarıda qalan hissəsi su doldurulmuş butulkanın içərisinə qoyulur ki, səməni oradan su ala bilsin. O, əvvəlcə bir neçə gün – yəni cücərtilər çoxalanadək qaranlıq yerdə, sonra isə günəş şüaları düşən yerdə saxlanılır. Ona su nə az, nə çox, qədərində verilməlidir. Yoxsa səməni xarab olar. Leyla xanım deyir ki, bu cür fərqli formalarda səmənilərin cücərdilməsi həm qadınlarımızın təxəyyülünü, həm də səliqə-sahmanını ortaya çıxarır. Bayram mərasimlərinə, evlərə, süfrələrə daha bir gözəllik qatır. Leyla xanım söyləyir ki, biz uşaq olanda tək-tək adam tapılardı ki, səmənini pulla alsın, amma indi əksər qadınlar tənbəllik edib səmənini almağa üstünlük verirlər. Amma, məncə, hər kəs bunu evində cücərtsə, daha maraqlı olar. Həm ruzi-bərəkət baxımından, həm də səməninin boy atmasını izləmək insana xoş təsir bağışlayır. Xanım vurğulayır ki, o vaxtlar nənələrimiz bir araya gələrək səməni halvası da bişirər, ondan hər kəsə pay verərdilər. Onlar deyərdilər ki, səməni müqəddəsdir. Ona təmiz qabdan su vermək, təmiz yerdə saxlamaq, hündür yerə qoymaq lazımdır. Saralandan sonra da natəmiz yerə atmaq günah sayılar. Onu ya axar suya atmalı, ya da yeməsi üçün həyatdakı toyuqcücəyə verməlisən.

Leyla xanımla söhbətləşə-söhbətləşə evinin səmənilərini saxladığı guşəsinə çatanda o, “Səməni, saxla məni, ildə göyərdərəm səni”, – deyərək onları əzizləməyə başladı. Səmənilərə su verə-verə bir neçə bayatı da söylədi:

*Ay səməni, səməni,*
*Utandırma, sən məni,*
*Yaşılın qoy bol olsun,*
*Heyran etsin çəməni.*

*Əzizim yaşıl çəmən,*
*Yaşıl bağ, yaşıl çəmən,*
*Qoy səmənidən alsın,*
*Bu rəngi hər bağ, çəmən.*

*Yaşıl donlu, incə belli səməni,*
*Gül ətirli, buğda cilli səməni,*
*Şux qamətin düşüb dildən-dillərə,*
*Bizim gözəllərlə elli səməni.*

Leyla xanımı dinlədikcə düşüncələrə dalıram: Təbiət və insan… Bir-birindən ayrı təsəvvür belə, edilməyən iki canlı. Təbiət insan qayğısından, nəvazişindən ilhama gəlir, insan isə təbiətin əsrarəngizliyindən, gözəlliyindən. Bu ilhamda canlı təbiətlə yanaşı, həm də rənglərin harmoniyası yer alır. Yaşılın, sarının, qırmızının, bəyazın…Budur, baharın ilk yaşılı səməni bir azdan öz rəngini çəmənlərə, düzlərə yayacaq, bu yaşılın içərisindən ağ, sarı, qırmızı çiçəklər boylanacaq, ağaclar ağlı-çəhrayılı örpəklərini atacaqlar başlarına. Beləliklə, əllərimizlə cücərtdiyimiz, yazın, ruzi-bərəkətin rəmzi səməni ömrümüzə-günümüzə növbəti baharı gətirəcək. Cücər, yar buğdanın bağrını, Günəşə doğru boylan səməni, geyin yaşıl libasını, o incə belinə bağla qırmızı kəmərini… Bayram xonçalarında şirniyyatların, rəngbərəng yumurtaların, yanar şamların fonunda nazla-nəvazişlə baharı – xoş günləri səslə. Səslədiyin bu bahar xalqımıza, millətimizə əmin-amanlıq, uğur, səadət, gətirsin. Səməni, qoy sənin şux qamətin taxıl zəmilərinə də sirayət edib ellərimizə bol ruzi-bərəkət bəxş etsin. Gətirdiyin bu baharın da qədəmləri mübarək olsun!..

**✍ Mətanət MƏMMƏDOVA**

## Bayram günlərində sərnişindaşıma yüksək səviyyədə təşkil ediləcək

*Muxtar respublikada nəqliyyatın inkişafı sahəsində görülən işlər əhalinin rahat hərəkətinin təmin olunmasının, eləcə də şəhər infrastrukturunun mühüm sahəsi sayılan sərnişindaşıma xidmətinin daha keyfiyyətli şəkildə təkmilləşdirilməsinin bir nümunəsidir. Bu gün sərnişindaşıma xidmətinin yüksək səviyyədə təmin olunmasını şərtləndirən amillərdən biri də avtomobil yollarının müasir tələblər səviyyəsində qurulması, yeni avtovağzalların tikilməsi, eləcə də nəqliyyat vasitələrinin yenilənməsidir. Bu sahədə görülmüş işlər hazırda muxtar respublikada sərnişin daşınmasının ən yüksək səviyyədə təşkilinə imkan verir.*

Ötən dövrdə bu sahədə görülmüş işlər 2018-ci ildə də davam etdirilib. Naxçıvan Muxtar Respublikası Dövlət Nəqliyyat Xidmətindən aldığımız məlumata görə, 2018-ci ilin iyul ayında idarəyə 5 “King Long” markalı, ümumilikdə, 42 yerlik iritutumlu avtobus alınıb. Qeyd olunan tarixdən etibarən sərnişindaşımaya cəlb edilib. Öyrəndik ki, beynəlxalq sərnişindaşıma xidməti göstərən avtobusların fəaliyyəti də diqqət mərkəzində saxlanılıb, Türkiyə Respublikası ilə Naxçıvan Muxtar Respublikası arasında turların təşkil olunması üçün Türkiyənin “Babək Turizm” və “Ata-Tur Turizm” firmaları ilə danışıqlar aparılıb, sərnişindaşıma fəaliyyəti göstərilməsi üçün müqavilələr bağlanılıb. Təkcə cari ilin yanvar ayında Naxçıvan-Bakı-Naxçıvan avtobus marşrutu ilə Naxçıvandan Bakıya 1229, Bakıdan Naxçıvana isə 1003 sərnişin daşınıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına uyğun olaraq sərnişinlərin vaxt itkisinin azaldılması məqsədilə 2019-cu ilin yanvar ayından Naxçıvan-Bakı-Naxçıvan marşrut xətti üzrə axşam reysləri də təşkil edilib. Həmçinin Naxçıvan-İqdır-Naxçıvan marşrutunda gündəlik sərnişindaşıma xidməti həyata keçirilib. Sərnişinlərin rahatlığını təmin etmək məqsədilə Naxçıvan-Bakı-Naxçıvan marşrutunda işləyən avtobuslardan birinin hər gün Şərur və Culfa avtovağzallarından yola salınması, Şahbuz və Ordubad avtovağzallarında isə Naxçıvan-Bakı-



Naxçıvan avtobus marşrutlarına bilet satışı davam etdirilməkdədir.

Bəs əhalinin daha çox hərəkət ehtiyacının artacağı bayram günlərində sərnişindaşıma xidməti necə təşkil olunacaq? Dövlət Nəqliyyat Xidmətindən aldığımız məlumata görə, Novruz bayramı ərəfəsində muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərində keçiriləcək bayram tədbirləri ilə bağlı əhali sıxlığını nəzərə alaraq şəhərdaxili, eləcə də rayonlararası marşrutların sayı artırılacaq, ara məsafəsi dəqiqələri azaldılacaq. Bayram ayı ərzində sərnişin sıxlığı müşahidə olunarsa, onların rahatlığını təmin etmək məqsədilə Naxçıvan-Bakı-Naxçıvan və Naxçıvan-İqdır-Naxçıvan marşrut xətləri üzrə əlavə reyslər salınacaqdır.

Bayram günlərində dəmir yollarında da sərnişindaşıma xidməti yüksək səviyyədə təşkil olunacaq. “Naxçıvan Dəmir Yolları” Məhdud Məsuliyyətli Cəmiyyətindən aldığımız məlumata görə, ötən dövrdə görülmüş işlər muxtar respublikanın dəmir yollarında da sərnişinlərə lazımi xidmət göstərilməsinə imkan verir. Məlumatda qeyd olunur ki, bayram ərəfəsində sərnişinlərin rahat və təhlükəsiz daşınması məqsədilə yük-sərnişin qatarlarının fasiləsiz işi tam təmin olunacaq. Sərnişin sıxlığı müşahidə olunarsa, xəttə əlavə vaqonlar buraxılacaqdır.

**✍ Pərviz HACILI**

## Hərbi-idman oyunu keçirilib



*Naxçıvan Atıcılıq Mərkəzində, “Naxçıvan” Mərkəzi Təlim Mərkəzində və “N” hərbi hissənin idman şəhərciyində ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında “Vətən naminə” hərbi-idman oyunu keçirilib.*

Əvvəlcə Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov çıxış edərək bildirib ki, dövlətimiz gələcəyimiz olan gənc nəslin Vətənə məhəbbət, xalqa, elinə və obasına hörmət, soykökünə, adət-ənənələrinə sədaqət ruhunda tərbiyə olunmasına həmişə böyük əhəmiyyət verib.

Qeyd edilib ki, muxtar respublikada aparılan gənclər idman siyasətinin davamı olaraq nazirlik tərəfindən gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması, gənclərə vətənpərvərlik hisslərinin aşılanması məqsədilə mütəmadi olaraq məktəblilər arasında “Şahin”, “Sərhəd” hərbi-idman oyunları keçirilir.

Sonra Əlahiddə Ümumqoşun Ordu komandirinin müavini, general-mayor Teymur Eyyubov çıxış edərək hərbi-idman oyununun əhəmiyyətindən danışıb.

“Vətən naminə” hərbi-idman oyunu darağa patron doldurulması və boşaldılması, avtomatın sökülməsi və yığılması, tüfəngdən hədəfə atəş açılması, fiziki hazırlıq, 100 metr məsafəyə qaçış, turnikdə dartınma, maneələrin dəf olunması mərhələlərindən və peyntbol yarışından ibarət olub.

Nəticələrə əsasən Naxçıvan Dövlət Texniki Kollecinin “Zirvə” komandası hamıdan güclü olub. Naxçıvan Dövlət Universitetinin “Naxçıvan”, “Naxçıvan” Universitetinin “İstiqlal” komandaları isə ikinci və üçüncü yerlərlə kifayətləniblər.

Qalib komandalar və komanda üzvləri təşkilatçılar tərəfindən kubok, diplom və fəxri fərmanlarla təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### İtmişdir

Babək rayonunun Sirab kəndində yerləşən “İlham” Məhdud Məsuliyyətli Cəmiyyətinin adına verilən 128 inventar nömrəli texniki pasport və MH-0021808 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1495. Sifariş № 205